No: 04 2025
https://doi.org/10.64400/ea25-4-03
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MÖVLUD SÜLEYMANLININ "DƏYİRMAN" POVESTİNDƏ ARXETİPİK YADDAŞIN BƏRPASI

**Əli HƏŞİMOV** [1], **Sevinc QULİYEVA** [1]
[1]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
**Yazışılan müəllif elihesimov@ndu.edu.az*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
M.Süleymanlı, "Dəyirman", arxetipik yaddaş, ikiqütblü şəxsiyyət, sosial-siyasi gerçəklik, sosial-psixoloji yanaşma, mifopoetik dünya

**XÜLASƏ**
Məqalədə Mövlud Süleymanlının "Dəyirman" povesti tədqiqat obyekti kimi seçilmiş, əsərdə arxetipik yaddaşın bərpası problemi elmi-nəzəri aspektdən araşdırılmışdır. Tədqiqatda fərdi və kollektiv yaddaşın qarşılıqlı əlaqəsi, arxetipik yaddaşın itirilməsi və yenidən dirçəldilməsi prosesi bədii mətn kontekstində təhlil edilir. Povestdə təqdim olunan ikiqütblü və parçalanmış şəxsiyyət modeli tarixi yaddaşda formalaşmış qorxu sindromu ilə əlaqələndirilir və bu sindromun şəxsiyyətin psixoloji bütövlüyünə təsiri açıq şəkildə göstərilir.
Məqalədə həmçinin sosial-siyasi gerçəkliklərin insan şüuruna və davranışına təsiri sosial-psixoloji müstəvidə dəyərləndirilir, mifopoetik təfəkkürün tarixi yaddaşın bərpası və ya parçalanmasında oynadığı rol üzə çıxarılır. Müəllif povestdə mifdən bəhrələnmə, simvolik obrazlar və arxetipik motivlər vasitəsilə yaddaşın yenidən qurulması mexanizmini izah edir. Aparılan mühakimələr göstərir ki, "Dəyirman" povesti yaddaş, kimlik və tarixi şüur problemlərinin bədii ifadəsi baxımından mühüm ədəbi nümunədir.

## GİRİŞ

Çağdaş nəsrşünaslıqda diqqəti cəlb edən məqamlardan biri də obrazın (qəhrəmanın) psixoanalitik düşüncə müstəvisindən yanaşdıqda arxetipik yaddaşın təsiri altında olan davranış modellərinin ümumiləşdirilməsidir. Psixoanalitik baxımdan yanaşdıqda arxetipik yaddaşın mahiyyəti müəllifin kollektiv şüursuzluqla qarşılıqlı təsirində özünü göstərir. Karl Yunqun nəzəriyyəsinə görə, arxetiplər "...kollektiv təhtəlşüurun universal simvolları fərdi şüurun formalaşmasında və romanda hadisələrin simvolik təzahüründə böyük rol oynayır" (Jung, 1968, s. 152). Yunqdan fərqli olaraq Freyd arxetipik yaddaşının əsiri olan obrazı dəyərləndirmə vasitəsi kimi yazıçının arxetipik instiktlərini ön plana çəkir. Z.Freydin psixoanalitik nəzəriyyəsinə görə yazıçının "...arxetipik düşməni sıxışdırılmış instinktiv motivlərin və basdırılmış duyğuların simvolik ifadəsi vasitəsilə müəyyən edilir" (Freud, 1923, s. 65). Əslində, Lacana görə isə məsələ fərqli prizmadan baxış tələb edir. Beləliklə, Lacan vurğulayır ki, arxetipik bəpa mübarizələri həm fərdi, həm də sosial-linqvistik kontekstdə canlandırılır və yazıçının psixoloji təcrübəsi ilə həyata keçirilir. Lacana görə arxetipik yaddaşın bərpası prosesi "kollektiv həmkarlar arasında körpü rolunu oynayır" (Lacan, 1977, s. 89). Bu, romanın psixoloji realizmini gücləndirir, oxucuya qəhrəmanların daxili aləmini, onların münaqişələrini tarixi-sivil kontekstdə dərindən dərk etməyi təmin edir.

Mövlud Süleymanlının "Dəyirman" povesti Azərbaycan ədəbiyyatında simvolik, mifik, psixoloji qatlarla zəngin olan dəyərli bədii nümunədir. Əsər, kəndlərdəki maddi-ruhani tənəzzül, insan ailələri arasında moral uçurum və unutqanlıq kimi problemləri poetik dildə təqdim edir. Bu aspektdən yanaşsaq povestin qəhrəmanlarının yaşadıqları daxili çəkişmələr və qaranlıq xatirələr arxetipik yaddaşın qırılması və bərpası situasiyası çərçivəsində maraqlı analiz obyektinə çevrilə bilər. Tədqiqatımız zamanı "Dəyirman" povestində arxetipik yaddaşın bərpası prosesini psixoanalitik yanaşma çərçivəsində dəyərləndirəcəyik. Bu zaman diqqət edəcəyik: 1.Yaddaşın qırılması və travmatik unutqanlıq motivləri; 2. Mifoloji və simvolik çağırışlar (arxetiplər); 3. Yaddaşın bərpası-sintez və identiklik yenidənqurulması.

## TƏHLİL

Azərbaycan nəsrşünaslığında haqqında fərqli təzahürlər doğuran maraqlı bədii nümunələrdən biri də Mövlud Süleymanlının "Dəyirman" povestidir. Povestə psixoanalitik təhlil müstəvisində yanaşdıqda maraqlı situativ məqamlar diqqəti cəlb edir. Belə ki, "Dəyirman" povestinin mifologi qatları, folklor motivləri və simvolizmi haqqında çoxsaylı tədqiqatlar mövcuddur (Əliyeva, 2021). Eyni zamanda nəsrşünaslıqda nasirin yaradıcılığına dair, yaxud dövrün hər hansı problemini araşdıran dissertasiyalarda əsərin mənəvi-psixoloji aspektlərinə geniş yer verilib (Babayev, 2019). Əslində povestin mifoloji qatı, əsərdəki magiya ünsürləri psixoanalitik oxuma üsulu ilə aşkara çıxa bilər. Məsələyə fərqli rakursdan baxdıqda aydın olur ki, povestdə arxetipik yaddaşın bərpası konsepti bu zaman dərinləşir. Povestin dəyərləndirilməsi zamanı arxetipik yaddaşın qırılması və travmatik unutqanlıq sindromu, mifoloji məkan və zamanı ehtiva edən simvollar, arxetipik çağırışlar, dəyirman, su, torpaq, toxum simvolları, yuxu, fantaziya kimi şüuraltı səhnələr, sintez və identikliyin yaddaşın bərpasındakı rolu, zamanın sinkretik dərki, kollektiv-mədəni unutqanlığın yaratdığı kimlik arayışları kimi tezislərin məhz psixoanalitik dərki "Dəyirman" povestinin alt qatını görməyə imkan verir.

Psixoanalitik yanaşmada yaddaşın qırılması (repressiya, repressiv unutqanlıq) travmatik hadisələrin şüuraltına itələnməsi ilə bağlıdır. Arxetipik yaddaş qatları olan kollektiv, mifik, mədəni yaddaş da fərdi travmalarla zədələnə bilər. Povestdə yaddaşın qırılması bir neçə səviyyədə görünür: fərdi keçmişin məhv edilməsi, kollektiv yaddaşın aşınması və mədəni köklərin silinməsi.

Povestdən seçilmiş mətn strukturları deməyə əsas verir ki, M.Süleymanlı insanların maddi və mənəvi boşluq içində yaşadıqlarını göstərir: "Dəyirman artıq dən üyütmürdü, insanlar orada toplanır, amma yalnız xatirələrini daşıyırdılar" (Süleymanlı, 1985, s. 52). Bu fraqment arxetipik yaddaşın silinmiş dəyirman simvolu ətrafında insanların xatirələrə tutunmasını göstərir. Dəyirman, bu simvolik məkan əvvəlcə məişət, dirlik mərkəzi idisə, zamanla yadlaşma və unudulma məkanına, unudulumaqda olan yaddaşın iztirablarının yaddaşa verdiyi əzabın ifadəçisinə çevrilir. Əsərdə ayrıca alkoqolizm, əxlaqi pozulma və mənəvi boşalma kimi motivlər yaddaşın dağıdıcı qüvvələri kimi təqdim edilir. Tənqidçi Vaqif Yusifli qeyd edir ki, "əsərdə sərxoşların, alkoqolizmə düçar olanların həyatı təsvir edilir, onların nə üçün bu dərdə tutulduqlarının səbəbi izah edilir" (Yusifli, kulis.az). Bu ifadə psixoloji yadlaşmanın və unutqanlığın sosial forma almış halı kimi özünün göstərir. Yaddaşın parçalanması həm də obrazların öz keçmişləri ilə əlaqələrinin kəsilməsi ilə müşayət olunur. Bir sıra obrazlar səhv seçimləri səbəbilə öz köklərindən ayrı düşmüşlər. Müəllif obrazına günahkarlıq kompleksi müstəvisindən yanaşmır, postmodern diskursun təsiri ilə "açıq sual"la oxucusuna müraciət edir. Bu vəziyyət, arxetipik yaddaşın özü kimi folklor, mədəni simvol və kollektiv kodların unudulma təhlükəsi altında olduğunu göstərir.

Arxetipik yaddaşın bərpası prosesində əsərdə istifadə olunan simvol və mifoloji qatlar mühüm rol oynayır. Bu qatlar şüuraltından çağırış funksiyası kimi alqılanır, itmiş köklərə işarə edərək oxucunu yaddaşa istiqamətləndirir.

Dəyirman əsərin mərkəzi simvolu kimi həm fiziki, həm metaforik məkandır. Dəyirman əvvəlcə "dirlik" və "çörək" mənbəyi kimi anlqılanırsa da zamanla pozulmuş sistemin, düzənin ifadəçisinə çevrilir. Tənqidi təfəkkürdə bu simvol sovet sisteminin çürümə məzərəsi kimi dərk olunub təqdim olunur: "Simvolik Dəyirman obrazı sovet rejiminin çürüməyə, çökməyə başladığını əks etdirir" (Məmmədov, 1987). Dəyirman, həmçinin bir arxetipik məkandır: o, torpaq, su, toxum və dövrilik motivlərini birləşdirir. Yəni insanla təbiət, keçmişlə gələcək arasında körpü rolunu daşıyır. Arxetip olaraq dəyirman "gücün, dövriyyənin" simvoludur və yaddaşın hərəkətliliyini təmin edən vasitəçidir.

Povestdə su və torpaq elementləri tez-tez metafor kimi istifadə olunur. Su yaddaşı, torpaq kökləri, toxum gələcəyi ifadə edir. Mifopoetik düşüncədə su və torpaq elementləri kainatın yaradılışı, kökün və həyatın başlanğıcı ilə bağlıdır. Çünki bədii mətndə bu simvollar arxetipik yaddaş qatlarını oyadır. Povestin mifopotik stukturundan bəhs edən folklorşünas Sevinc Əliyeva qeyd edir ki, "Mifologizmlərin yazılı ədəbiyyatda istifadəsi … xalqın mifik düşüncə sisteminin əsərə daxil edilməsinə şərait yaradır" (Əliyeva, 2021, 40). Bu fikir əsərdəki simvolizm qatının yaradılması üçün istifadə olunan mifoloji baza barədə impulslar verir.

Povestdə diqqət mərkəzinə çəkmək istədiyimiz stukturdan gələn detallardan biri də yuxudur. Əsərdə yuxu və xəyali səhnələr obrazların iç dünyasını, gizli qorxularını və yaddaş qırıntılarını

açmağa xidmət edir. Bu baxımdan psixoanalitik metod yaddaşın arxetipik qatlarına, o cümlədən kollektiv qorxu və kollektiv arzulara toxunmağa imkan verir. Obrazların röya sahələri keçmişlə indinin qarşılaşma məkanıdır. Belə səhnələrdə obrazlar ailə xatirələri, uşaq illəri və etnoqrafik motivlərlə qarşılaşırlar ki, bu da arxetipik yaddaş zonalarını yenidən oyadır.

Arxetipik yaddaşın bərpası yalnız keçmişin geri qaytarılması kimi dərk olunmur, həm də yeni yaddaş sintezidir, identikliyin yenidən qurulması prosesidir. Bu aspektdən yanaşdıqda "Dəyirman" povestində bir neçə səciyyəvi mərhələ izlənilə bilər. Povestdə çağırışlar, dialoq və zamanın sintezi kimi rakurslara nəzər yetirək. Simvolik çağırışlar (mifoloji motivlər, xəyali sahələr, rəmzi məkanlar) obrazları yaddaş qatlarına çağırır. Bu çağırışlara cavab olaraq obrazlar öz unutduqları, qovduqları, rədd etdikləri yaddaş qırıntılarını yenidən qəbul etməyə meyl göstərirlər. Yaradılmış müərəkkəb situativ məqamda yaddaşını bərpa etməyə çalışan və çağıran obrazların çağırışları mifopotik dünyaya səyahətə də yol açır. Misal üçün, obraz torpağı, dəyirman ətrafını, uşaq xatirələrini yenidən xatırlayaraq öz kimliyini bərpa etmək üçün çalışır ki, bu yaddaş bərpasının bir mərhələsidir. Yaddaşın bərpası povestdə dialoqlar, keçmişlə indinin qarışığı və zamanın qeyri-xronoloji istifadəsi vasitəsilə dramatikləşdirilir. Hadisələrin və bərpa prosesinin elementi olan xatirələrin paralel təqdimatı yaddaş qatlarının üst-üstə gəlməsini təmin edir. Oxucu üçün bərpa olunan yaddaş qatları arasında qarşılıqlı əlaqə formalaşır və bu, fərdi yaddaşla kollektiv yaddaş arasında "dialoq" mühiti yaradır. Bu dialoq eyni zamanda identifikasiya prosesini gücləndirir. Nəhayət, yaddaşın bərpası yalnız fərdi identikliklə məhdudlaşmır. Bu kollektiv və mədəni identikliklə birləşməlidir. "Dəyirman" povestində insan obrazları kəndin, ənənələrin, folklorun və yerli mədəni kodların xatırlanmasını tələb edirlər. Bu xatırlama həm fərdi, həm də milli yaddaşın sintezi deməkdir. Efektiv yaddaş bərpası obrazların yalnız öz keçmişlərini xatırlamaları ilə sərhədli deyil, eyni zamanda bu xatirələri mədəni kontekstlə uzlaşdıra bilmələri ilə də bağlıdır.

Povestə psixoanalitik yanaşmanın verdiyi imkanlar çərçivəsindən baxdıqda bəlli arqumentlər diqqət mərkəzinə çəkilməlidir. Yazıçı, daha dəqiqi mətnin strukturu deyir ki,

1. Povestin simvolik-mifik qatları arxetipik yaddaşın çağırışını uğurla həyata keçirir;
2. Psixoanalitik oxumaya uyğun olan yuxu-fantaziya səhnələri yaddaşın bərpası prosesinə poetik qat qatır;
3. Kollektiv və fərdi yaddaşın sintezi ideyası mədəni kök və identləşmə ilə bağlı aktual suallara cavab arayışını həyata keçirə bilir;
4. Eyni zamanda əsərin mövzu və forması arasındakı bağlılıq oxucuya çoxqatlı təcrübə verir.

Mətnin strukturu onu da deyir ki,

1. Mətnin bəzi rəmzi qatları (simvollar, mifoloji motivlər) açıq interpretasiya tələb edir və oxucunun mifoloji təsəvvürlərindən asılıdır;
2. Psixoanalitik analiz bəzən mətnin konkret yerindən uzaqlaşaraq universal arxetip modellərinə dah çox istinad edə bilir ki, bu da bədii detalın itirilməsi riskini artırır;
3. Bərpa prosesinin sonunda identikliyin tam şəkildə sabitləşməsi nadir halda gerçəkləşir, yəni açıq sonluq strateji olaraq qoruna bilər. Bu da perspektivdə bəzən oxucuda tamamlanmamışlıq hissi yarada bilər.

"Dəyirman" povestində diqqəti cəlb edən, üzərində dayanılası məqamlardan biri də şəxsiyyət və şəxsiyyətin qütbləşməsidir. Psixoanalizdə "ikiqütblü şəxsiyyət" fərdin içində bir-birinə zidd iki impulsun, dəyərin və ya mənəvi mərkəzin mübarizəsini bildirir. Freyd bunu id və superego qarşıdurması kimi izah edir, Yung isə bunu "kölgə arxetipi" ilə "şüurlu mən"in mübarizəsi adlandırır. Povestin mərkəzində duran insan obrazları sırasında xüsusilə kəndin sərxoşu, keçmiş dəyirmançı və ümumiyyətlə kənd camaatı dağılan dünyada öz kimlikləri ilə mübarizə aparırlar. Bu mübarizə həm daxili (vicdan – laqeydlik), həm xarici (ənənə – müasirlik) səviyyədə baş verir. Məsələn, "Dəyirman dayanmışdı, amma insanların içində nəsə hələ üyünürdü…" (Süleymanlı, 1985, s. 74). Bu cümlə həm dəyirman (cəmiyyət, həyat mexanizmi), həm də insanın iç dünyası üçün metaforadır. Yəni xaricdə həyat dayanıb, amma içəridə, şüurun dərin qatlarında hələ hərəkət, təlatüm, ikiləşmə var. Burada bir qütbü keçmiş, yaddaş, mənəvi kök, digər qütbü bugünkü boşluq, yalançı həyat tərzi təşkil edir. Obrazlar bu iki qütb arasında təlatümdədirlər.

Povestdəki əsas obrazların timsalında ikiqütblülüyün konturlarına nəzər yetirək. Sərxoş obrazı (adətən dəyirman ətrafında dolaşan kişi) ikiqütblülüyün daşıyıcısıdır. O, həm öz keçmişinə bağlı, həm də keçmişindən qaçan biridir. O, həm xatirələrin daşıyıcısı, həm də xatirələri məhv edəndir. Freydin "id" (istək, impuls) və "superego" (vicdan, yasaqlar) qarşıdurması burada aydın hiss olunur: sərxoş impulsivdir, eyni zamanda içində bir günahkarlıq və utanc hissi də daşıyır. Bu, Yungun "kölgə arxetipi" ilə uyğun gəlir: obraz öz kölgəsini (qaranlıq tərəfini) tanımır, amma ondan qaça da bilmir. Müəllif sərxoş kişini xarakterizə edərkən yazır ki, "O, içdiyi hər qədəhdə nəyisə xatırlayırdı, amma nəyi- bunu özü də bilmirdi." (Süleymanlı, 1985, s. 81). Bu cümlə repressiya və yaddaşın parçalanması metaforudur. Obraz özünün "unutmaq istədiyi" tərəfi ilə üz-üzədir. Eyni zamanda Sərxoş kişi özünün unutmaq istədiyi tərəfinin əsirinə çevrilə də bilmir.

Povestdə "Dəyirman" simvolik obraz kimi qarşımızdadır. Dəyirman özü də ikiqütblü simvoldur: bir tərəfdən yaradıcı güc (çörək, həyat, dövran), digər tərəfdən çürümə və dağılma. Yəni həm "varlıq", həm "yoxluq" eyni məxluqda şəkil alır. Psixoanalitik baxımdan bu, insanın şüur və şüuraltı təbəqələrinin paralel yaşamasına bənzəyir:

- Şüurlu səviyyə: Dəyirman dayanıb, həyat bitib;
- Şüuraltı səviyyə: içəridə üyütmə (hərəkət, xatirə) davam edir.

Bu ikilik insanın öz iç dünyasındakı gərginliyi simvolizə edir, eyni zamanda dərkolunan ikiqütblülük yaradır. Povestdə şəxsiyyətə münasibətdə, obrazlara yanaşmada müşahidə etdiyimiz ikiqütblülük daha çox itməkdə olan mədəniyyətin arxetipik yaddaşda yaratdığı rezonansın təsiri iləsosial-psixoloji mahiyyət qazanır. "Dəyirman" povestindəki obrazlar müstəvisində müşahidə olunan sosial-psixoloji ikiqütblülük daha dərin qatlarda sosial mühitin, cəmiyyətin problemi kimi dərk olunur. Əsərdə həmçinin cəmiyyətin özündə də ikiqütblü vəziyyət yaranmışdır:

- Ənənəvi kənd mədəniyyəti ilə Sovet modernizminin toqquşması;
- Ruhani-mənəvi dəyərlərlə maddi-instinktiv davranışların qarşıdurması.

Bu ikiqütblülük təkcə fərdi psixologiyada yox, kollektiv səviyyədə də mövcuddur. Yəni kollektiv şəxsiyyət parçalanması aktı kimi müşahidə olunmaqdadır. Belə baxanda, əsərin insanları da "bölünmüş şəxsiyyət"in fraqmentləridir: biri ağrını daşıyır, biri unutmaq istəyir, biri xatırlayır.

## NƏTİCƏ

Mövlud Süleymanlının "Dəyirman" povesti arxetipik yaddaşın qırılması və bərpası mövzusunda zəngin material təqdim edən dəyərli bədii mətn hadisəsidir. Povest yaddaşın parçalanmış qatlarını simvol, mifologiya və psixoanalitik strukturlarla oyadır və onları yenidən sintez edərək identiklik axtarışına qoşur. Arxetipik çağırışlar (dəyirman, su, torpaq, yuxu), yaddaşın bərpası prosesini poetikləşdirir və həm fərdi, həm kollektiv yaddaşın sintezini mümkünləşdirir. Məqalədə göstərildiyi kimi, "Dəyirman" povesti psixoanalitik yanaşma ilə oxunanda simvol və yaddaş qatlarının qarşılıqlı təsiri daha aydın görünür. Psixoanalitik yanaşmada itirilmiş yaddaşın bərpası prosesini daha dərin qatda izləyəcəyimiz Mövlud Süleymanlının "Dəyirman" povestində ikiqütblü şəxsiyyət konsepsiyasının parçalanmış yaddaşdan qaynaqlandığı gerçəyinə varılır. Əslində Mövlud Süleymanlı bu "ikiqütblülüyü" mənfi yox, təhlükəli, amma qaçılmaz mərhələ kimi göstərir. Yaddaş bərpa olunmadan öncə insanın içindəki bu ikiləşmə yaşanmalıdır, çünki insan öz "kölgəsini" tanımadan bütövləşə bilməz. Yəni ikiqütblülük burada yaddaşın oyanışının başlanğıcıdır. Obrazlar öz parçalanmış "mən"lərini qəbul etdikcə, arxetipik yaddaş, yəni xalqın, torpağın, keçmişin enerjisi yenidən canlanır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Babayeva, Elmira Məcnun qızı. Mövlud Süleymanlının yaradıcılığı. AMEA Nizami adına Ədəbiyyat İnstitutu, dissertasiya işi, Bakı, 2019.
2. Bart, Roland. Mifologiyalar. Paris: Seuil Nəşriyyatı, 1957.
3. Həbibbəyli, İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2008, 647 s.
4. Freyd, Ziqmund. Yuxuların yozumu. Nyu-York: Beysik Buks, 2010

5. Əliyeva, Sevinc. (2021). Bədii əsərin süjet quruluşunda mifologizmlər (Mövlud Süleymanlının "Dəyirman" povesti əsasında). Azərbaycan dili və ədəbiyyat tədrisi, № 2, s. 37–46.
6. Levi-Stros, Klod. Struktural antropologiya. Nyu-York: Beysik Buks, 1963.
7. Məmmədov, Aydın. Mövlud Süleymanlının "Dəyirman" povesti haqqında qeydlər. Ədəbiyyat qəzeti, Bakı, 1987, № 14.
8. Propp, Vladimir. Nağılların morfologiyası. Ostin: Texas Universiteti Nəşriyyatı, 1968.
9. Kempbell, Cozef. Min üzü olan qəhrəman. Princeton: Princeton Universiteti Nəşriyyatı, 1949.
10. Yunq, Karl Qustav. Arxetiplər və Kollektiv Şüursuzluq. – Princeton: Princeton Universiteti Nəşriyyatı, 1968, 451 s.
11. Süleymanlı, Mövlud. Dəyirman. Bakı: Yazıçı, 1985.

## ABSTRACT

## THE RESTORATİON OF ARCHETYPAL MEMORY İN MOVLUD SULEYMANLİ'S NOVELLA "THE MİLL"

**Ali Heshimov, Sevinc Guliyeva**

The article examines Movlud Suleymanli's novella "The Mill" as the object of research, focusing on the problem of the restoration of archetypal memory within the literary text. The study analyzes the relationship between individual and collective memory, as well as the process of loss and revival of archetypal memory in the narrative structure of the work. The depiction of a bipolar and fragmented personality is associated with the fear syndrome embedded in historical memory, revealing its impact on the psychological integrity of the individual.

The article also evaluates the influence of socio-political realities on human consciousness and behavior from a socio-psychological perspective. Particular attention is paid to the role of mythopoetic thinking in the restoration or fragmentation of historical memory. Through the use of myth, symbolic imagery, and archetypal motifs, the author explains the mechanisms of memory reconstruction in the novella. The conclusions demonstrate that "The Mill" represents a significant literary example in terms of its artistic interpretation of memory, identity, and historical consciousness.

**Keywords:** *M. Suleymanli,* "The Mill"*, archetypal memory, bipolar personality, socio-political reality, socio-psychological approach, mythopoetic world*

## АННОТАЦИЯ

## ВОССТАНОВЛЕНИЕ АРХЕТИПИЧЕСКОЙ ПАМЯТИ В ПОВЕСТИ МОВЛУДА СУЛЕЙМАНЛЫ «МЕЛЬНИЦА»

**Али Гашимов, Севиндж Гулиева**

В статье в качестве объекта исследования рассматривается повесть Мовлуда Сулейманлы «Мельница», в которой анализируется проблема восстановления архетипической памяти. В работе исследуется взаимосвязь индивидуальной и коллективной памяти, а также процесс утраты и возрождения архетипической памяти в художественном тексте. Образ двуполярной и фрагментированной личности соотносится с синдромом страха, сформированным в исторической памяти, и выявляется его влияние на психологическую целостность человека.

Кроме того, в статье с социально-психологической точки зрения оценивается воздействие социально-политических реалий на сознание и поведение личности. Особое внимание уделяется роли мифопоэтического мышления в процессе восстановления или распада исторической памяти. Посредством обращения к мифу, символическим образам и архетипическим мотивам раскрываются механизмы реконструкции памяти в повести. Сделанные выводы подтверждают, что «Мельница» является значимым литературным произведением с точки зрения художественного осмысления проблем памяти, идентичности и исторического сознания.

**Ключевые слова:** *М. Сулейманлы, «Мельница», архетипическая память, двуполярная личность, социально-политическая реальность, социально-психологический подход, мифопоэтический мир*